

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 200 (23.362)

24 oktyabr 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün Ramiz Mehdiyevi qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə – İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul edib.



## “Azərbaycan – müstəqil dövlətim mənim” adlı yaradıcılıq müsabiqəsinə yekun vurulub



*Naxçıvan Dövlət Universitetində “Azərbaycan – müstəqil dövlətim mənim” adlı fotovideo, əl işləri müsabiqəsinə yekun vurulub.*

Müsabiqədə fərqlənən tələbələrin mükafatlandırılması mərasimində çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rafiq Rəhimov tariximizin müstəqillik səhifəsinə nəzər salıb. Qeyd edib ki, bu cür tədbirlərin keçirilməsinin əsas məqsədi tələbələri milli vətənpərvərlik, adət-ənənələrimizə, mədəniyyətimizə, incəsənətimizə hörmət ruhunda tərbiyə etmək, ayrı-ayrı sahələr üzrə istedadlı gənclərin üzə çıxarılaraq onların qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək verməkdən ibarətdir.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədr müavini, tarix üzrə elmlər doktoru Xəzər Hüseynov “Müstəqilliyə gedən yol” adlı çıxışında vurğulayıb ki, Azərbaycanın müstəqilliyinin əsasları, bu yolda atılan mühüm qərarlar məhz muxtar respublikada öz tarixi həllini tapıb. Diqqətə çatdırılıb ki, ulu öndərimiz Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarı və qurucusu kimi şərəfli və məsuliyyətli bir missiyanı uğurla həyata keçirib. Hələ sağlığında xalqın qəlbində əbədiləşən ümummilli liderin siyasi xətti bu gün də ölkəmizdə, eləcə də muxtar respublikamızda dönmədən davam etdirilir.

Çıxışlarda keçirilən müsabiqənin gənclər arasında milli müstəqilliyimizin bəhrələrinin təbliği baxımından əhəmiyyəti vurğulanıb, müsabiqənin obyektiv və şəffaf şəraitdə keçirildiyi bildirilib.

Qeyd edək ki, tələbələr tərəfindən çəkilən və Azərbaycanın dövlət müstəqilliyini əks etdirən fotovideo, əl işləri hər bir tələbə tərəfindən hərəsindən bir nümunə olmaqla təqdim edilib. Müsabiqəyə universitetin “Instagram” səhifəsində, ümumilikdə, 40-a yaxın əl işi, video yerləşdirilib. Qaliblər 20 gün müddətində hər nominasiya üzrə ən çox bəyənilən 10 yaradıcı işin müəllifləri arasından seçilib.

Əl işlərinin qiymətləndirilməsi zamanı tələbələrin şəxsi yaradıcılıq qabiliyyətləri, ideya, mövzu axtarışları əsas götürülüb. İqtisadiyyat ixtisası üzrə IV kurs tələbəsi Aytac Həsənli müsabiqənin qalibi olub. Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə III kurs tələbəsi İnci Qasımova II, Dünya iqtisadiyyatı ixtisası üzrə I kurs tələbəsi Nigar Nəsirli III yerə çıxıb. Bu nominasiya üzrə həvəsləndirici yeri Əczaçılıq ixtisası üzrə I kurs tələbələri Azad Memitanlı, Enes Kılıç tutublar.

Münsiflərin rəyinə əsasən video nominasiyası üzrə Xalq çalğı alətləri ixtisası üzrə III kurs tələbəsi Əsmər İbrahimbəyli qalib seçilib. İqtisadiyyat ixtisası üzrə III kurs tələbəsi Hüseyn Qurbanov II, Biologiyanın tədrisi metodikası və metodologiyası ixtisası üzrə I kurs magistrant Fatimə Babayeva III yerə layiq görülüblər.

Qaliblər Naxçıvan Dövlət Universitetinin diplom və pul mükafatı ilə təltif olunublar.

**Səadət ƏLİYEVA**

## Şura iclası keçirilib



Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının növbəti şura iclasında cari ilin 9 ayında təşkilatın gördüyü işlərdən və qarşıda duran vəzifələrdən danışılıb. Tədbirdə çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov bildirib ki, rayon təşkilatının tərkibində fəaliyyət göstərən 54 ərazi ilk partiya təşkilatında üzvlər arasında nizam-intizamın möhkəmləndirilməsinə, ərazi ilk təşkilatlarında ideoloji işin təşkilinə diqqət xeyli artırılıb.

Rayon təşkilatı cari ildə gənclərlə işi daim diqqət mərkəzində saxlayıb, Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatı Culfa Rayon Birliyi, Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi ilə birlikdə müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirib. Gənc çağırışçıların həqiqi hərbi xidmətə yola salınmasında Gənclər Birliyi, Qadınlar Şurası daim iştirak edib, idmanın inkişafına, vətənpərvərlik tərbiyəsinə diqqəti artırıb.

Vurğulanıb ki, ötən 9 ayda təşkilat tərəfindən İdarə Heyətinin 9 iclası, 3 şura iclası keçirilib. İdarə heyətində 17 məsələ müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

Bildirilib ki, hazırda rayon təşkilatının 54 ərazi ilk partiya təşkilatının tərkibində 5665 nəfər partiya üzvü fəaliyyət göstərir. Onlardan 2706 nəfəri qadın, 1682 nəfəri isə gəncdir. 2019-cu ilin 9 ayında partiya sıralarına 64 üzv qəbul olunub. Onlardan 27 nəfəri qadın, 53 nəfəri isə gəncdir.

Bu ilin əvvəlindən rayon təşkilatı, ərazi ilk təşkilatları fəaliyyətində təbliğat-təşviqat işlərini gücləndirib. Yeni tikilib istifadəyə verilmiş 18 kənd mərkəzində ərazi ilk təşkilatları üçün iş otaqlarının ayrılması onların fəaliyyəti üçün geniş imkanlar açıb.

Qadir İbrahimov qeyd edib ki, təşkilat üzvləri əldə olunmuş nailiyyətlərlə kifayətlənməməli, fəaliyyətlərini daha da genişləndirməli, üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidirlər.

Tədbirdə rayon Qadınlar Şurasının sədri Xanım Tağıyeva, Dizə kənd tam orta məktəbi ərazi ilk təşkilatının sədri Ədalət Əhmədov, Yeni Azərbaycan Partiyası Rayon Gənclər Birliyinin üzvü Vüsal Nəcəfov çıxış ediblər.

Şura iclasında müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul olunub.

Sonda İdarə Heyətinin iclası keçirilib, bir qrup gəncin partiya sıralarına qəbul olunması barədə müvafiq ərazi ilk təşkilatlarının qərarları təsdiq edilib.

**Alim AĞAYEV**

## 39 ailə təsərrüfatına 381 min 400 manatdan artıq dövlət maliyyə dəstəyi göstərilmişdir

*Bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi fəallıqda əsas yeri sahibkarlıq subyektləri tutur. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafında, əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasında, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal və emal sahələrinin, həmçinin müasir infrastrukturun yaradılmasında dövlət maliyyə dəstəyinin göstərilməsi əhəmiyyətli investisiya mənbəyidir.*



Özəl sektora dövlət dəstəyinin gücləndirilməsi, iqtisadi və maliyyə resurslarına çıxış imkanlarının genişlənməsi məqsədilə 2019-cu ilin ötən dövrü ərzində kredit resurslarına ehtiyacı olan sahibkarlıq subyektlərinin iqtisadiyyatın prioritet istiqamətlərinə yönəlik layihələrinin maliyyələşdirilməsi davam etdirilmişdir. Belə ki, cari ilin 9 ayı ərzində Sahibkarlığın İnkişafı Fonduna sahibkarlar və ya təsərrüfat subyektləri tərəfindən 220 müraciət daxil olmuşdur. Həmin müraciətlər üzrə monitorinqlər aparılmış, iqtisadi cəhətdən səmərəli hesab edilən müxtəlif təyinatlı prioritet layihələrlə bağlı sahibkarlıq subyektlərinə və ailə təsərrüfatlarına biznes planların və digər zəruri sənədlərin hazırlanması istiqamətində köməkliklər göstərilmişdir. Nəticədə, 1 yanvar 2019-cu il tarixdən 1 sentyabr 2019-cu il tarixə fondun vəsaitləri hesabına müvəkkil kredit təşkilatı vasitəsilə 58 layihənin maliyyələşdirilməsinə 6 milyon 458 min 700 manatdan çox kredit verilmişdir. Həmin vəsaitdən sənayeyönümlü 6 layihənin maliyyələşdirilməsinə 5 milyon 523 min manat yönəldilmişdir. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalı, o cümlədən heyvandarlıq, arıçılıq, quşçuluq sahələrinin, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, soyuducu anbarın yaradılması, müxtəlif çeşiddə meyvə araqlarının və meyvə qurularının qablaşdırılması, süd məhsullarının emalı, yabanı növ bitkilərin tədarükü və qablaşdırılması, damazlıq arı təsərrüfatının və balın emalı sahələrinin yaradılması, qovurmanın qablaşdırılmasının təşkili, dondurma istehsalı və satışı sahəsinin yaradılması məqsədilə 50 layihənin maliyyələşdirilməsinə 922 min 700 manat vəsait sərf edilmişdir. Bundan başqa, xidmətyönümlü 2 layihə üzrə 13 min manat həcmində vəsait yönəldilmişdir.

İqtisadiyyatın mühüm istiqamətlərindən biri də ailə təsərrüfatlarının formalaşması və gələcəkdə kiçik və orta sahibkarlıq subyektlərinə çevrilməsidir. Son dövrlərdə dövlət tərəfindən bu fəaliyyət sahəsinin stimullaşdırılması ilə bağlı atılan addımlar muxtar respublikada ailə təsərrüfatlarının artmasına şərait yaratmışdır. 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması, belə təsərrüfatların iqtisadi inkişafdakı rolunu nəzərə alaraq onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi davam etdirilmişdir. Belə ki, 2019-cu ilin yanvar-sentyabr ayları ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələrdən heyvandarlıq, quşçuluq, arıçılıq təsərrüfatı, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi, yabanı növ bitkilərin tədarükü, qablaşdırılması, süd məhsullarının emalı və qablaşdırılması, unlu-qənnadı məmulatların paketlənməsi üçün xammalın və taranın alınması, qovurmanın qablaşdırılması məqsədilə 39 ailə təsərrüfatına 381 min 400 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Bu istiqamətdə tədbirlər ötən dövr ərzində davam etdirilmiş, 38-dən çox ailə təsərrüfatına kreditlərin verilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir.

Sahibkarlara, ailə təsərrüfatlarına güzəştli şərtlərlə kreditlərin verilməsi, istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması muxtar respublikada ailə təsərrüfatlarının inkişafına hərtərəfli şərait yaratmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəsi Montro-Fot-Yonn şəhərinin meri ilə görüşüb

*Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin 1-ci iclasında iştirak etmək üçün Parisdə səfərdə olan Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəsi Bəxtiyar Əsgərov Naxçıvan şəhəri ilə qardaşlaşma xartiyası imzalamağa hazırlaşan Montro-Fot-Yonn şəhərinin meri Ceyms Şeron ilə görüşüb.*





Görüşdə iki şəhərin tarixindən, iqtisadiyyatından danışılıb. Mer Ceyms Şeron bildirib ki, Sena və Yonn çaylarının sahillərində yerləşən Montro-Fot-Yonnda əvvəllər kənd təsərrüfatı və ticarət daha çox inkişaf etmiş və şəhərin geniş ticarət əlaqələri olmuşdur. Ancaq ötən əsrin sonlarından şəhər sənaye və demoqrafik inkişaf baxımından geniş vüsət götürüb və sənaye şəhərinə çevrilib. Dünyanın bir çox ölkələrinə fiber-optik kabellər ixrac edir. Mer yeni tikilməkdə olan müəssisələr haqqında məlumat verib. Montro-Fot-Yonn şəhərinin tarixi məkan olmasından danışaraq şəhərin tarixi əhəmiyyətini, eləcə də Fransanın tarixində böyük rol oynadığını diqqətə çatdırıb.

Bəxtiyar Əsgərov Naxçıvanın tarixi və mədəni irs abidələri, eləcə də mədəniyyəti və mətbəxinə dair kitabları, muxtar respublikanın tarixi və mədəni irs abidələrinə dair diskləri merə hədiyyə edib. Bildirib ki, bu kitablar və disklər onun Naxçıvanı daha yaxından tanımasına imkan verəcək. Daimi nümayəndə Montro-Fot-Yonn şəhərinin merini Naxçıvana səfərə dəvət edib.

Dəvəti böyük məmnuniyyətlə qəbul edən mer Ceyms Şeron qarşıdan gələn bələdiyyə seçkilərindən sonra Naxçıvana səfər edəcəyini bildirib. Əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağına inandığını deyib.

Görüşdə səfirliyimizin II katibi Suliddin Məmmədov və Montro-Fot-Yonnun Meriya Şurasının Azərbaycan üzrə əlaqələndiricisi Marqo Qomes dö Kastro da iştirak ediblər.

Montro-Fot-Yonn şəhərini yaxından tanımaq üçün Naxçıvan nümayəndəsinə xüsusi proqram təşkil olunub. Meriya Şurasının Azərbaycan üzrə əlaqələndiricisi Marqo Qomes dö Kastronun müşayiəti ilə Naxçıvanın daimi nümayəndəsi şəhərdə fəaliyyət göstərən “Rəqəmsal Akademiya”da (La Digitale Academie), “Micro-Folie” virtual muzeyində, eləcə də Fransanın tarixində böyük rol oynamış tarixi hadisələrin cərəyan etmiş olduğu məkanlarda olub.

Gənclərin müxtəlif universitetlərin diplomuna yiyələnməsini asanlaşdırmaq məqsədi ilə yaradılmış Rəqəmsal Akademiya ilə tanışlıqdan sonra akademiyanın direktoru Soazig Grosla müzakirələrdə Bəxtiyar Əsgərov Naxçıvan universitetləri və distant təhsil haqqında məlumat verib. Bildirib ki, “Naxçıvan” Universiteti bir çox ölkələrin universitetləri ilə əməkdaşlıq edir və distant təhsil təmin olunub. Bu gün Naxçıvanda onlarla ölkənin tələbələri təhsil alır. O həmçinin Naxçıvan və Fransa universitetləri arasındakı mövcud əlaqələrə toxunaraq fransız dilinin tədrisindən söz açıb. Qeyd edib ki, Naxçıvan Dövlət Universitetində Fransız dili ixtisası üzrə ali təhsilli kadrlar hazırlanır, muxtar respublikanın 50-yə yaxın orta məktəbində Fransız dili fənni tədris olunur. 2006-cı ildən muxtar respublikada Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası fəaliyyət göstərir. Aparılan araşdırmaların nəticələri müxtəlif beynəlxalq jurnal və kitablarda nəşr edilib. Eyni zamanda “Azərbaycan-Fransa birgə arxeoloji qazıntıların 10 illiyi” adlı sərgilər Bakı və Lyon şəhərlərində keçirilib. Sərgilərdə Naxçıvanda arxeoloji qazıntılar zamanı tapılan əşyalar nümayiş olunub.

Montro-Fot-Yonn şəhərinin “Micro Folie” rəqəmsal virtual muzeyinə səfər zamanı muzeyin fəaliyyəti haqqında məlumat verilib. Qeyd edilib ki, “Micro Folie”də Fransanın bütün muzeylərinin, eləcə də bir çox ölkələrin məşhur muzeylərinin eksponatları ilə daha yaxından tanış olmaq mümkündür. Mədəniyyət müəssisəsinin əsas məqsədi digər şəhərlərdəki muzeylərə getmək imkanı olmayan sakinlərə yardımçı olmaq və həmin muzeylərin eksponatlarını təqdim etməkdir.

Müzakirələr zamanı bu muzeydə Naxçıvanın tarixi və mədəni abidələri haqqında rəqəmsal məlumatın yerləşdirilməsinin əhəmiyyətinə toxunulub. Bildirilib ki, belə məlumat yerli sakinlərə qardaş şəhəri yaxından tanımağa imkan yaradacaq.

Şəhərlə tanışlıqdan sonra Montro-Fot-Yonn şəhərinin meri tərəfindən təşkil edilmiş işgüzar naharda müzakirələr davam edib. Nahar zamanı tərəflər əməkdaşlığın mümkün istiqamətlərini bir daha nəzərdən keçiriblər.

Naxçıvan Muxtar Respublikası, onun zəngin mineralları haqqında maraqlanan şəhər meriyasının nümayəndələrinə ətraflı məlumat verilib. Nuhun vətəni, bəşəriyyətin beşiyi olan Naxçıvanın tarixindən, coğrafiyasından, antik və orta əsrlər dövrü maddi mədəniyyət nümunələri və tarixi abidələrindən, ilk insanların yaşadığı mağaralardan, möhtəşəm qalalardan, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələrdən söz açılıb. Bildirilib ki, uzun illərdir, Ermənistanın işğalçılıq siyasəti nəticəsində blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvanda inkişafa nail olunub, enerji və ərzaq təhlükəsizliyi təmin edilib. Respublikada müasir infrastruktur yaradılıb. Söhbət zamanı Naxçıvanın geniş turizm potensialına toxunulub. Naxçıvandakı səhiyyə turizminin inkişafı sahəsində mövcud infrastrukturlardan – Duzdağ Fizioterapiya Mərkəzindən, Darıdağ arsenli su müalicə və istirahət kompleksindən, həmçinin dərman bitkilərindən, “Badamlı” və “Sirab” kimi təbii müalicəvi süfrə sularından ətraflı söhbət açılıb.

İşgüzar nahara qoşulan meriya nümayəndələri Naxçıvanda təşkil edilmiş beynəlxalq səviyyəli tədbirlər haqqında məlumatlandırılıblar. Qeyd edilib ki, 2018-ci ildə Naxçıvanda “Avropa günləri” keçirilmiş, bir çox Avropa ölkələrinin Azərbaycanda akkreditə olunmuş səfirləri tədbiri çox yüksək qiymətləndirmişlər. Bir çox beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edən Naxçıvanın özü də bir sıra ölkələrdə beynəlxalq tədbirlərdə təmsil olunub, xüsusilə də Fransada keçirilmiş beynəlxalq iqtisadi sərgilərdə Naxçıvan şirkətləri də iştirak edib.

Xatırladaq ki, cari ilin aprel ayında Sen və Marn departamentinin Montro-Fot-Yonn şəhərində 178-ci Müqəddəs Parfe sərgi-yarmarkasında Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə Naxçıvan öz stendi ilə təmsil edilib. Naxçıvan stendi ziyarətçilərin böyük marağına səbəb olub.

## Ceyms Şeron: Naxçıvanın nümayəndəsinin şəhərimizə səfəri gələcək əməkdaşlığımızı müzakirə etmək üçün çox vacibdir



Fransa və Azərbaycanın ərazi kollektivləri arasında sazişlər imzalanıb. İki gün əvvəl Azərbaycan-Fransa regionlararası əməkdaşlığın inkişaf etdirilməsi üzrə İdarəetmə Komitəsinin iclası keçirildi. İclasda hər iki ölkənin səfirləri, Azərbaycan İqtisadiyyat nazirinin müavini iştirak edirdi. Həmin iclas çərçivəsində Naxçıvan şəhərinin rəsmi nümayəndəsini Montro-Fot-Yonna dəvət etdik. Bu gün onu meriyamızda qarşılamaqdan çox şadıq. Bu, gələcək əməkdaşlığımızı müzakirə etmək üçün vacibdir.

Bu fikri Naxçıvan şəhəri ilə qardaşlaşacaq Montro-Fot-Yonn şəhərinin meri Ceyms Şeron AZƏRTAC-a müsahibəsində söyləyib.

O bildirib ki, bu qardaşlaşma şəhərlərə öz metodlarını, yanaşmalarını, bilik və bacarıqlarını, innovasiyalarını mübadilə etmək üçün imkan yaradacaq. Naxçıvanın nümayəndəsini qəbul etməkdən çox şadam. Onun şəhərimizin “Rəqəmsal Akademiya”sına və “Micro Folie” virtual muzeyinə baş çəkməsinə çox sevinirəm. Şəhərimizdə ali təhsil müəssisəsi olmadığından innovasiyalar sayəsində gənclərimizə yerindəcə təhsil almaq imkanı yaratmışıq. Bu innovasiya ilk dəfə şəhərimizdə yaradılıb. İnanıraq ki, Naxçıvanda da bu metoddan istifadə ediləcək və naxçıvanlı gənclər fransız universitetlərində distant təhsil almaq imkanına malik olacaqlar.

“Micro Folie” virtual muzeyimiz dünyaya bir pəncərədir və digər bir innovasiyamızdır. Yeni texnologiyaların sayəsində mədəniyyəti insanlara daha yaxın edirik. İnanıraq ki, təcrübəmiz, metod və yanaşmalarımız qarşılıqlı maraq yaradacaq və hər iki tərəf üçün faydalı olacaq.

“Bu gün Naxçıvanın nümayəndəsini şəhərimizdə qarşılamaqdan çox şadam. Ümid edirəm ki, onun səfərinə cavab olaraq tezliklə şəhərimizin nümayəndə heyəti ilə Naxçıvana gedəcəyəm”, – deyə Ceyms Şeron bildirib.

## Gi Ankaua: Qarşılıqlı görüşlərimiz əməkdaşlığımızın sahələrini müəyyən etməyə imkan yaradır



Ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafına töhfə vermək üçün Montro-Fot-Yonn şəhəri Naxçıvan şəhəri ilə qardaşlaşmaq arzusundadır. Bu fikri Montro-Fot-Yonn meriyasının qardaşlaşma komitəsinin sədri Gi Ankaua AZƏRTAC-a müsahibəsində söyləyib. O deyib ki, hər iki şəhər arasında mədəniyyət, musiqi, idman sahələrində əlaqələr qura və mübadilələr apara bilərik. Qarşılıqlı olaraq bir-birimizi daha yaxından tanıyarıq. Görüşlərimiz və müzakirələrimiz əməkdaşlığımızın sahələrini müəyyən etməyə imkan yaradır.

**Şəhla AĞALAROVA**
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Montro-Fot-Yonn***

## *“Tələbələrin elmi-tədqiqat fəaliyyətinin təşkili”* mövzusunda seminar-müşavirə

Naxçıvan Müəllimlər İnstitutunda “Tələbələrin elmi-tədqiqat fəaliyyətinin təşkili” mövzusunda keçirilən seminar-müşavirədə institutun rektoru, dosent Elbrus İsayev çıxış edərək ölkəmizdə elm və təhsilin strateji sahələr kimi dövlət qayğısı ilə əhatə olunduğunu vurğulayıb. Bildirib ki, müasir və müstəqil dövlətimizin elm siyasəti ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilib və bu gün də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Rektor qeyd edib ki, muxtar respublikada fəaliyyət göstərən dövlət ali təhsil və elm müəssisəsi kimi Naxçıvan Müəllimlər İnstitutunun da üzərinə böyük və məsul vəzifələr düşür. Ali təhsil ocağının strateji hədəflərindən biri fəaliyyətini “təhsil-tədqiqat-innovasiya” formatında qurmaqdan, ölkə qanunvericiliyinə uyğun şəkildə gələcəkdə “Tədqiqat Universiteti” statusunu qazanmaqdan ibarətdir.

Sonra seminar-müşavirədə müzakirələr aparılıb. İlk olaraq çıxış edən institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı ali təhsil müəssisələrində təhsil alanların elmi-tədqiqat işlərinin təşkili ilə bağlı müasir tələblər, bu sahədə institutda görülən işlər və qarşıda duran vəzifələrdən bəhs edib. Qeyd olunub ki, Naxçıvan Müəllimlər İnstitutunda aparılan məqsədyönlü elmi-təşkilati tədbirlərin nəticəsində elmi tədqiqata cəlb olunan tələbələrin sayı ilbəil artır. Belə ki, əvvəllər bu rəqəm yüzdən az olmuşdursa, keçən tədris ilində 145, cari



tədris ilində isə 200-ə yaxın tələbə elmi-tədqiqat yolunda ilk addımlarını atmaqdadır.

Seminar-müşavirədə filologiya üzrə elmlər doktoru, professor Akif İmanlı “Humanitar elmi tədqiqatlar: tədqiqatçı tələbə nələri etməlidir?”, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşad Ağayev “Dəqiq elmlər sahəsində elmi metodologiyalara dair gələcəyin tədqiqatçısına tövsiyələr” mövzularında məruzələrlə çıxış ediblər. İnstitutun tələbə elmi cəmiyyətinin sədri, İbtidai sinif müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi, adlı təqaüdçü Fatimə Həsənova cəmiyyətin fəaliyyəti barədə məlumat verib. Suallar cavablandırıldıqdan sonra seminar-müşavirə öz işini 4 bölmədə davam etdirib. Dəyirmi masa ətrafında elmi rəhbərlərlə tədqiqatçı tələbələrin görüşləri keçirilib, tədqiqatçı tələbələr üçün fərdi məsləhət saatları təşkil edilib. Sonda bölmə rəhbərləri işlərin yekununa dair hesabat veriblər. Seminar-müşavirədə müzakirə və təkliflər əsasında qarşıda duran vəzifələr müəyyənləşdirilib.

✍ **Pərviz HACILI**

## Rabitə xidmətləri sahəsində uğurlu nəticələr əldə olunub

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi 2019-cu ilin 9 ayında da uğurla davam etdirilib.***

Ötən dövrdə Şərur rayonunun Kərimbəyli və Babək rayonunun Kültəpə kəndlərinin hər birində bir ədəd 384 yerlik NGN tipli və Ordubad rayonunun Dəstə kəndində isə 704 yerlik NGN tipli yeni avtomat telefon stansiyaları qurulub. Ordubad rayonunun Dəstə, Şərur rayonunun Kərimbəyli və Babək rayonunun Kültəpə kəndlərində poçt bölməsi yeni binaya köçürülüb, bütün işçi kompüterlər “Naxçıvanpoçt”un şəbəkəsinə qoşulub və digər lazımi avadanlıqlarla təmin olunub.

Muxtar respublikada yeni nəsil texnologiyaların tətbiqi ilə əlaqədar həyata keçirilən 5-ci mərhələ üzrə işlər başa çatdırılıb. Culfa rayonu ərazisində yeni nəsil telefon stansiyalara keçidlə əlaqədar Daewoo və Kareltipli avtomat telefon stansiyaları demontaj olunaraq yeni nəsil NGN tipli avtomat telefon stansiyaları ilə əvəz olunub. Bundan əlavə, Culfa rayonunun Əbrəqunus və Ərəfsə məntəqələri arasında çəkilən 28 kilometr uzunluğunda yeraltı fiber-optik kabel xəttinin tikinti işləri başa çatdırılıb və xətt üzərində 3 qovşaq yaradılıb, həmin istiqamətdə fəaliyyət göstərən 18 avtomat telefon stansiyasının hər birinə Gb/s-lik kanallar ayrılmaqla arabağlantı təmin edilib. Mövcud avtomat telefon stansiyalarının nömrə tutumlarının artırılması nəticəsində hesabat dövründə 1585 yeni telefon nömrəsi istismara verilib, 90 min 875 metr fiber-optik kabel xətti çəkilib, “Evədək optika” layihəsi çərçivəsində 28 fərdi mənzil fiber-optik kabel xətti ilə təmin edilib.

Payız-qış mövsümünə hazırlıqla bağlı rayon və kənd avtomat telefon stansiyalarında olan generatorlara texniki baxış keçirilib, ehtiyacı olanlar təmir edilərək işlək vəziyyətə gətirilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Hüseyn Cavid ədəbiyyatımızda romantizm ədəbi cərəyanının, milli romantik şeirin və mənzum faciənin banisi, böyük şair, yazıçı və dramaturqdur. Milli poeziyamızda fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan ədib mənzum faciələri və tarixi dramları ilə tanınıb. Ümummilli liderimiz Heydər Əliyev deyib:* ***"Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu, bəlkə də, Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış adamdır. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaqdır, yaradtığı əsərlər Azərbaycan xalqının milli sərvətidir".***

# Gənc nəslin yoluna işıq saçan "Cavid günəşi"



*Hüseyn Cavid*
*Rəssamı Həbibə Allahverdiyeva*

Hələ 30-cu illərin əvvəllərində adı dillər əzbəri olan Cavid 1937-1956-cı illər arası, hətta 1981-ci ilə qədər böhtan və iftiralara məruz qalır. Həqiqətən, ulu öndər Heydər Əliyevin imzası ilə 1981-ci il iyul ayının 21-də Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında verilən qərar böyük ədibə əsl bəraət qazandırır. Onun ədəbi irsinin toplanıb nəşr olunması, əsərlərinin müxtəlif teatrlarda tamaşaya qoyulması, Cavidə həsr edilmiş monoqrafiyaların, əsərlərinin 4 cilddə, habelə rus dilində 2 cilddə, ərəb əlifbası ilə 1 cilddə nəşr olunması, Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə abidə ucaldılması, ev-muzeylərinin yaradılması və digər işlərin həyata keçirilməsi ümummilli liderimiz Heydər Əliyevin dahi şairə olan sonsuz məhəbbətlə imzaladığı qərarda öz əksini tapıb.

Qərardan sonra Naxçıvanda Cavidin vaxtı ilə qədim Əlixan məhəlləsində bazar çayının kənarındakı yaşadığı evdə yaradılan ev-muzeyi nəinki cavidsevərlərin, bütünlükdə ədəbiyyatsevərlərin sevimli ziyarətgahıdır. 1982-ci ildə totalitar sovet rejimi dövründə Hüseyn Cavidin nəşinin qalıqlarının Uzaq Sibirdən vətəninə gətirilməsi Cavid irsinə marağı daha da artırdı.

Ulu öndərin şəxsi təşəbbüsü, qayğısı və göstərişi əsasında Cavidin nəşi onun doğulduğu qədim Naxçıvanda torpağa tapşırıldı. Uzaqgörən siyasətçinin bu addımı onun adının əbədiləşdirilməsinə xidmət edirdi. Xalqımızın böyük oğlu hələ Naxçıvanda Ali Məclisin Sədri işləyərkən, ən ağır və çətin dövrlərdə belə, Cavidi unutmadı və onun 110 illik yubileyinin muxtar respublika səviyyəsində qeyd olunmasını təşkil etdi. Yubiley tədbirində yaddaqalan çıxışı ilə Cavidə, onun irsinə yüksək dəyər verdi: ***"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, bütün Türk dünyasının ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir, bir yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır".***

Şairə ucaldılan möhtəşəm məqbərə isə Azərbaycan ədəbi-mədəni irsinə yüksək sevgi və ehtiramın ifadəsi idi. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 2002-ci ildə böyük ədibin anadan olmasının 120 illik yubileyi münasibətilə çoxsaylı tədbirlər keçirilmişdir. Ümummilli liderin layiqli davamçısı, Prezident cənab İlham Əliyevin "Hüseyn Cavidin 125 illik yubileyi haqqında" 2007-ci il 17 aprel tarixli Sərəncamının Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin il may ayının 15-də imzaladığı sərəncamla təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq isə 125 illik yubileyi Azərbaycanda geniş qeyd olunmuşdur. Həmin Tədbirlər Planına əsasən hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında "Hüseyn Cavid Poeziya Günü" kimi qeyd edilir.

Azərbaycan ədəbiyyatı tarixində Hüseyn Cavid yaradıcılığı məzmunca yüksək olduğu kimi, bədii forma cəhətdən də zəngin və əlvandır. Novator lirik şeirlər, epik poemalar yazmaqla yanaşı, Cavid Azərbaycan söz sənətinə faciə və dramlardan ibarət incilər də bəxş etmişdir.

Onun yaradıcılığı üslub və forma cəhətdən Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaradıb, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərib. Mənzum faciə və dramlarının müxtəlif illərdə tamaşaya qoyulması "Cavid teatrı"nın formalaşmasına təsir edib. Ədəbiyyatımızda özünəməxsusluğu, koloriti, ədəbi dilin gözəlliyi və kamilliyi, dövrün fəlsəfi baxışlarına bələdçiliyi ilə səciyyələnən Hüseyn Cavid yaradıcılığı bu gün də gənc nəslin əsas mənəvi kamilləşmə mənbəyidir. Böyük ədibin əsərlərində qoyulan tarixi, fəlsəfi, sosial mövzular, onların həlli və təsviri baxımından apardığı axtarışlar indi də aktualdır, müasirdir. Onun əsərlərinin gənc nəslin tərbiyəsində, formalaşmasında rolu böyükdür. Hüseyn Cavid gənc nəsli əxlaqi cəhətdən yüksəlmiş, cəmiyyət üçün yararlı, zəkalı, vətəndaş-şəxsiyyət kimi görmək istəyirdi. Məhz buna görə də o, ilk növbədə, gələcəyimiz olan uşaqların qayğısına qalmağı özünün ən ümdə vəzifələrindən biri hesab edir, onların hərtərəfli şəxsiyyət kimi formalaşması məsələsinə əsərləri ilə aydınlıq gətirir. Böyük ədibin dillər əzbəri olan "Qız məktəbində", "Sevinmə, gülmə, quzum", "Öksüz Ənvər", "İlk bahar", "Çiçək sevgisi", "Hərb və fəlakət", "Kiçik sərsəri" kimi uşaq ədəbiyyatına daxil edilən şeirləri mövzu etibarilə zəngin, tərbiyə və təhsil nöqteyi-nəzərdən faydalılığı baxımından seçilir. Uşaq yaşına və psixologiyasına uyğun olaraq onlarda dünyagörüşünün, əqlin, təfəkkürün, bədii zövqün və təxəyyülün formalaşmasına müsbət təsir edən bu poeziya nümunələri mədəniyyətə, maarifə, insanpərvərliyə, xeyirxahlığa, dostluğa, əməkdaşlığa çağırış edən, yüksək əxlaqi keyfiyyətlər aşılayan, maraqlı, cəlbedici nümunələrdir. Gələcək həyat üçün vacib olan daxili birlik, bütövlük və məqsəd aydınlığı ilə seçilən bu şeirlərdə böyük ədibin irəli sürdüyü məsələlər müasir günümüzdə də öz aktuallığını itirməyib. Şair bu əsərlərində həm də yüksək pedaqoji ustalığa malik bacarıqlı bir müəllim kimi yetişməkdə olan gənc nəslin inkişafı qayğısına qalır. Onun məktəblə bağlı olan şeirləri içərisində konkretliyi, fikir aydınlığı ilə fərqlənən "Qız məktəbində" adlı şeiri xüsusilə diqqəti cəlb edir. Bu şeirdə əsl zinəti təmizlik və bilgi olan, altun bilərzikləri ilə deyil, sadə geyimi, aydın, zəngin mənəviyyatı ilə fərqlənən Gülbaharın nəciblik və ülviliyi geniş şəkildə mənalandırılır. Azərbaycan şeirində süjetli lirikanın ən mükəmməl nümunəsi sayılmağa layiq şeirdə şair Gülbahardan soruşduğu suallara dəyərli və məntiqli cavablar alır:

*– Nasıl, zənginmidir baban?*
*– Əvət, zəngin, bəyzadə...*
*– Öylə isə geydiyin geyim neçin böylə sadə?*
*Yoxmu sənin incilərin, altun bilərziklərin?*
*Söylə, yavrum! Heç sıxılma...*
*– Var əfəndim, var,.. lakin*
*Müəlliməm hər gün söylər, onların yox qiyməti,*
*Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti...*
*– Pək doğru söz.*
*...Bu dünyada sənin ən çox sevdiyin*
*Kimdir, quzum, söylərmisin?*
*– Ən çox sevdiyim ilkin –*
*O Allah ki, yeri, göyü, insanları xəlq eylər.*
*– Sonra kimlər?*
*– Sonra onun göndərdiyi elçilər.*
*– Başqa sevdiklərin nasıl, yoxmu?*
*– Var...*
*– Kimdir onlar?*
*– Anam, babam, müəlliməm, bir də bütün insanlar...*

Bu şeirdə irəli sürülən tərbiyəvi ideyalar elə maraqla və realllıqla ifadə edilir ki, hər bir şagird, uşaq həmin məlumat və hadisələri aydın dərk və müqayisə edə, müstəqil mühakimə yürüdə bilir.

Hüseyn Cavidin uşaq şeirləri nəinki uşaqlar, eyni zamanda yaşlı nəslin nümayəndələri üçün də düşündürücü ideyalar sistemidir.

İndiki gənc nəsil də məhz uşaqlıqdan Hüseyn Cavid məktəbində dərs keçə-keçə böyüyüb, həyat həqiqətlərini dərk edə, dünyagörüşlərini artıra bilirlər.

Ədibin gənc nəslin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan əsərlərindən biri "Azər" poemasıdır. Əsərin əsas qəhrəmanı Azər real həyatdan alınmış bir bədii obraz, şairin müasiri daha çox isə onun özünün prototipidir. O, yaşadığı mühitə, üzvü olduğu cəmiyyətə, Qərbə və Şərqə baxışları ilə yenitipli bədii obrazdır. Həyata və cəmiyyətə yeni nəzərlərlə baxan, hadisələri obyektiv dərk və təhlil etmək qabiliyyətinə malik olan Azərin əsas arzusu mənsub olduğu xalqı və ölkəni mədəni millətlərin cərgəsində görməkdir. Onun Qərbə və Şərqə səfərlərinin əsas məqsədi də dünyanı öyrənib məmləkətini və millətini irəli aparmaq niyyətindən doğurdu. Poemada Azərbaycanda qurulmuş yeni cəmiyyətə münasibət özünü əsərin "Səlmanın səsi", "İnqilab xırsızı", "İsyan" bölmələrində daha çox göstərir. Səlmanın dilindən deyilən "hər gülşənə vardım, çiçəklər güldü, Sevdalı bülbüllər salama gəldi", yaxud "Susmuş kamançalar ilhama gəldi" kimi nikbin misralar şairin yeni cəmiyyətə yaxşı tərəfdən baxmaq meylinin ifadəsidir. Bu cəmiyyətin mövcud ziddiyyətləri yox deyil. Ədib onlardan xilas olmanın zəruriliyini də qabarıq şəkildə nəzərə çarpdırıb. Poemanın "İnqilab xırsızı" bölməsində şura sədrinin törətdiyi özbaşınalıqların təsviri ilə şair yeni qurulmuş cəmiyyətdəki eybəcərlikləri diqqət mərkəzinə çəkir, yeni quruluşun yaşamasının mümkünsüz olduğunu ifadə edirdi. Poemanın epiloqu kimi düşünülmüş "İsyan" bölməsindəki bu misralar müasir gəncliyin quracağı böyük gələcəkdən xəbər verirdi:

*Söz yoq ki, bu gün gəncliyə baqsan,*
*Bir sel kibi hər an,*
*Sağlam. Yeni məfkurələr izlər.*
*... Onlar qoşacaq, çarpışacaqlar,*



*Bir çoq uçurumlar aşacaqlar. ...*
*Onlar mədəniyyətlə günəşlər yapacaqlar,*
*Keçmişlərə üstdən baqacaqlar.*
*Onlar güləcək, yüksələcəklər.*
*Bizdən daha xoş gün görəcəklər!*

Göründüyü kimi, insanlığın taleyi üçün narahat olan qəhrəmanın düşüncələri yalnız bəşərin səadəti barədədir. O, "Hürr ol!" deyərkən azadlığı, "Sağalır elm ilə hər türlü yara" deyərkən isə xalqın sabahını düşünür. Ədib cəhalətdən xilas yolunu elmləri öyrənib tərəqqi tapmaqda görür, bunun üçün də kitabxana və məktəblərin çox olmasını vacib sayır. Elmin, təhsilin, sosial-mədəni tərəqqinin köməyi ilə "eşi bulunmayan şu sönük torpaqların hər bucağında cənnət qurula bilər", – deyərək hamını maarifə, elmə səsləyir.

Ümumiyyətlə, poema boyu Hüseyn Cavid Azəri müxtəlif hadisələrlə və şəxslərlə qarşılaşdırır, bütün bunların fonunda müəllif özünün düşüncələrini, Vətən övladlarına arzularını, nəsihətlərini dilə gətirir. Mütəfəkkir ədibin insan nəfsinin əsiri olmamalı, öz mənafeyini güdməməli, haqq, həqiqət naminə fəaliyyət göstərməli, xoşbəxtliyi Vətənə xidmətdə aramalı, xalq üçün çalışmalı, əməyi ilə yurdu, cahanı çiçəkləndirməlidir kimi tövsiyələri müasir dövrdə də gənc nəsil üçün örnək götürüləcək dəyərli sözlərdir.

Bu gün böyük sənətkarımızın arzuları real bir həqiqətə çevrilib. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi ölkəmizdə, eləcə də muxtar respublikamızda gənc nəslin cəmiyyət həyatında rolunu xeyli artırıb. Artıq xalqımız müstəqil dövlətimizin müqəddəratını, Azərbaycanın gələcəyini xalqa, Vətənə səadət bəxş edəcək qüdrətli və məharətli gəncliyə etibar edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamı ilə "Oxunması zəruri olan kitabların Siyahısı"na böyüməkdə olan nəsillərin hərtərəfli inkişafına, şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərə biləcək əsərlərdən biri kimi, Hüseyn Cavidin "Azər" poemasının da salınması həm ümummilli liderin ideyalarının davam etdirilməsində, həm də ədibin zəngin irsinin gənc nəslə çatdırılmasında atılan mühüm addımdır.

Romantizmin böyük ustadının lirik-romantik, fəlsəfi şeirləri, monoloq və dialoqları, poemaları, dram əsərləri ideya-bədii mükəmməlliyi ilə söz sənətimizin zənginləşməsinə, gənc nəsildə ədəbiyyata sevgi, mədəni dəyərlərə hörmət hissinin aşılanmasına, onların əsl vətəndaş kimi formalaşmasına xidmət edir.

*Bütün ömrü boyu əsas amalı millətini, xalqını azad, xoşbaxt və firavan görmək, milləti üçün layiqli işlər həyata keçirmək olan Hüseyn Cavid yaradıcılığı bu gün də yolumuza işıq salan əbədiyyət günəşidir.*

**Güntac ŞAHMƏMMƏDLİ**

# "Hüseyn Cavid irsi və müasirlik" mövzusunda elmi konfrans

***AMEA Naxçıvan Bölməsində şair, yazıçı, dramaturq Hüseyn Cavidin anadan olmasının 137-ci ildönümünə həsr edilmiş "Hüseyn Cavid irsi və müasirlik" mövzusunda elmi konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, professor Hüseyn Həşimli açaraq böyük söz ustadının zəngin yaradıcılığı barədə ətraflı məlumat verib, Cavid şəxsiyyətinə və irsinə göstərilən dövlət qayğısından söz açıb.

Bildirilib ki, bu gün istər poeziyada, istərsə də dramaturgiyada orijinallığı və müasirliyi ilə seçilən, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavidin anadan olmasından 137 il ötür. Azərbaycan ədəbiyyatında milli romantik şeirin, mənzum dram və faciə janrlarının əsasını qoyan ədibin dünya romantizm ənənələri əsasında bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan müxtəlif janrda əsərləri xalqımızın zəngin bədii fikir xəzinəsində layiqli yer tutur.



Qeyd edilib ki, ədibin "Ana", "Uçurum", "İblis", "Şeyx Sənan" kimi əsərləri bu günün reallıqları ilə səsləşir. Onun əsərlərinin əsas mövzularından olan müharibəyə nifrət, sülhə çağırış bu gün də aktualdır. Ədibin yaradıcılığı əbədiyaşar söz sənəti kimi daim insan mənəviyyatının zənginləşməsinə xidmət edir. Onun milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərən mənzum faciə və dramları müxtəlif illərdə tamaşaya qoyulub.

Vurğulanıb ki, bütün fəaliyyəti boyunca Azərbaycan xalqının mədəniyyətini yüksəklərdə, xalqımızı isə daim azad, müstəqil görmək istəyən ədib "gizli millətçi əks-inqilabi təşkilat"da iştirakı bəhanəsi ilə həbs cəzasına məhkum edilib, Sibir buzlaqlarına sürgün olunub və doğma Vətənindən çox uzaqlarda vəfat edib. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Uzaq Sibirin əlçatmaz yerlərindən onun nəşinin qalıqları doğma yurdu Naxçıvana gətirilib, ev-muzeyinin yaxınlığında dəfn edilib. Naxçıvan şəhərində onun qəbri üstündə ucaldılan möhtəşəm məqbərə təkcə böyük sənətkara deyil, Cavidlərə ucaldılan abidədir.

Bildirilib ki, muxtar respublikamızda böyük ədibin xatirəsi həmişə əziz tutulur, onun irsinin öyrənilməsinə diqqətlə yanaşılır. Hüseyn Cavid sənəti və şəxsiyyəti bu gün də yaşadılır.

Sonra AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, dosent Ramiz Qasımovun "Hüseyn Cavidin həyatı və yaradıcılığı", filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılovanın "Hüseyn Cavid təfəkküründə Şərq və Qərb problemi", dosent Ələkbər Qasımovun "Hüseyn Cavid və teatr", filologiya üzrə fəlsəfə doktoru Aytən Cəfərovanın "Hüseyn Cavid və folklor" mövzularında çıxışları dinlənilib.

**Xəbərlər şöbəsi**

## Yeni eksponatların təqdimatı keçirilib



*Dünən sakinlər tərəfindən Naxçıvan Dövlət Xalça Muzeyinə qədim tariximizi və mədəniyyətimizi əks etdirən xalça, cecim, kilim, palaz olmaqla, 15 eksponat təqdim olunub.*

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova muzeylərimiz üçün maddi mədəniyyət nümunələrinin toplanmasının daim diqqətdə saxlanıldığını və bu işdə muxtar respublika sakinlərinin yaxından iştirak etdiklərini bildirib.

Qeyd olunub ki, Azərbaycan xalq tətbiqi sənəti və onun bir qolu olan xalçaçılıq xalqımızın milli-mədəniyyət tarixində özünəməxsus yer tutur. Arxeoloji materiallara və yazılı mənbələrə əsasən Azərbaycanda xalçaçılıqla hələ Tunc dövründən məşğul olunub. Xalçaçılıq sənətinin YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi bu sənət növünün dünyada bir daha tanıdılması deməkdir.

Bildirilib ki, bu gün ölkəmizdə xalçaçılıq sənətinin yaşadılması və inkişafına böyük diqqət göstərilir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2016-cı il 5 may tarixli Sərəncamı ilə “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Dövlət başçısının 2018-ci il 28 fevral tarixli Sərəncamı ilə qəbul olunan “Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” bu sahədə görülən işləri daha da sürətləndirib. Bütün bu tədbirlər Azərbaycan xalçaçılıq sənətinin inkişafı və təbliği ilə yanaşı, xalçaçılıq sənətimizin nüfuzunun daha da artmasına xidmət edir.

Aparılan elmi tədqiqatlardan aydın olur ki, Naxçıvan xalça qrupuna daxil olan xalça və xalça məmulatları muxtar respublikanın bütün rayonlarının ərazisində “Gördəst” üsulu ilə toxunub.

Natəvan Qədimova qeyd edib ki, diyarımızın müxtəlif bölgələrinə aid çoxsaylı xalça nümunələrinin qorunduğu və nümayiş etdirildiyi Naxçıvan Dövlət Xalça Muzeyinin yaradılması, muxtar respublikada xalça toxuculuğu emalatxanalarının fəaliyyət göstərməsi, bu istiqamətdə sənətkarların yetişdirilməsi məhz Naxçıvanda xalçaçılıq sənətinin yaşadılması və təbliği işinə bariz nümunədir.

Onu da qeyd etmək lazımdır ki, bu gün muxtar respublikada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”na əsasən 585 ədəd əllə toxunan xalçanın reyestri hazırlanıb və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən təsdiq edilib.

Vurğulanıb ki, bu gün Naxçıvan Dövlət Xalça Muzeyinə təqdim olunan xalçalar, əsas etibarilə, ötən əsrin xalçaçılıq sənəti nümunələri olmaqla, əllə toxunub. Xalçaçılıq sənətinin xalça, kilim və palaz növlərinə aid bu toxuculuq məhsulları öz ecazkar naxış ornamentləri ilə diqqəti cəlb edir.

Nazir çıxışının sonunda maddi mədəniyyət nümunələrini muzeyə təqdim etdiklərinə görə vətəndaşlara təşəkkürünü bildirib, mədəniyyətimizin inkişafına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mədəniyyət işçiləri adından minnətdarlıq edib.

Sonra Naxçıvan Dövlət Xalça Muzeyinin direktoru Ülviyyə Məmmədova, eksponatları muzeyə hədiyyə edənlərdən Şərur şəhər sakini Dilbər Baxşəliyeva çıxış edərək bildiriblər ki, maddi-mədəni irsimizin qorunması baxımından belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir. İnanırıq ki, bu işlər gələcəkdə də davamlı olaraq həyata keçiriləcək.

Sonda tədbir iştirakçıları təqdim edilən yeni eksponatlarla və muzeyin ekspozisiyası ilə yaxından tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## AMEA Naxçıvan Bölməsi beynəlxalq əlaqələrini genişləndirir

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev Şərqi Avropanın qədim mədəniyyət mərkəzlərindən biri sayılan Şimali Makedoniya Respublikasının paytaxtı Üsküp şəhərindəki Beynəlxalq Vizyon Universitetində elmi ezamiyyətdə olub.

Avropada ilk türk universiteti olan bu təhsil ocağında Əbülfəz Quliyev “Kuman-qıpçaqlar və Cənubi Qafqazda izləri” mövzusunda mühazirə oxuyub. Alimin çıxışı maraqla qarşılanıb.

Tanınmış dilçi alim, həmçinin universitetin rektoru, professor Fadıl Hoca və universitetin elmi şura üzvləri ilə görüşüb. Görüşdə professor Fadıl Hoca universitetin beynəlxalq əlaqələrindən, Azərbaycana səfərindən və Türkiyə ilə Azərbaycan arasında məhriban dostluq münasibətlərindən danışıb.

Əbülfəz Quliyev isə çıxışında Azərbaycanın müstəqilliyinin bərpasından sonra Naxçıvan Muxtar Respublikasında elm və təhsilin keçdiyi tarixi inkişaf yolundan və əldə olunan mühüm nailiyyətlərdən söz açıb. Alim Şimali Makedoniya Respublikasının elm və təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsinin zərurriliyini vurğulayıb.

Daha sonra bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu ilə Beynəlxalq Vizyon Universiteti arasında əməkdaşlıq haqqında protokol imzalanıb.

İki dildə tərtib olunan protokolda qurumlar arasında elm və təhsilin müxtəlif sahələri üzrə əməkdaşlığın 5 il müddətində həyata keçirilməsi nəzərdə tutulub.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Seminarlar davam etdirilir



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən iş sahələrində əməyin mühafizəsi qaydalarına riayət olunmasına dair maarifləndirici seminarlar davam etdirilir.

Növbəti seminar oktyabrın 22-də istehsalat sahələrində fəaliyyət göstərən 12 müəssisənin əməyin mühafizəsi üzrə mütəxəssislərinin iştirakı ilə keçirilib.

Seminarda nazirliyin yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşları tərəfindən iş sahələrində əməyin mühafizəsinin təşkilinə dair maarifləndirici söhbətlər aparılıb, mövzu ilə bağlı slaydlar nümayiş olunub. Bununla yanaşı, seminarda iştirak edən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin nümayəndəsi tərəfindən istehsalatda baş vermiş bədbəxt hadisə zamanı zərərçəkənə ilkin tibbi yardım göstərilməsi qaydalarına dair məlumat da tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda müəssisə nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Fərdi məlumatlar haqqında qanunvericiliyin pozulması hansı məsuliyyətə səbəb olur?*

**Cavab:** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən fərdi məlumatlar haqqında qanunvericiliyin pozulması dedikdə “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılması və ya işlənilməsi, fərdi məlumatların mülkiyyətçisi və ya operatoru tərəfindən fərdi məlumatların mühafizəsinin təmin olunmaması, “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tələb olunduğu hallarda və müddətlərdə fərdi məlumatların məhv edilməməsi, yaxud fərdi məlumatların toplanılmasının, işlənilməsinin və ya verilməsinin dayandırılmaması nəzərdə tutulur.

Fərdi məlumatlar haqqında qanunvericiliyin pozulmasına görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə müəyyən edilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## İdmançılarımız 36 medal qazanıblar

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən sentyabr ayında gənclərin asudə vaxtlarının səmərəli təşkili, intellektual səviyyələrinin artırılması, dünyagörüşlərinin formalaşdırılması, onlara vətənpərvərlik hisslərinin aşılanması və idmanın kütləviliyinə nail olunması istiqamətində ardıcıl tədbirlər görülmüşdür.***

“Naxçıvanı tanıyaq” devizi altında gənclərin “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə ekskursiyası təşkil olunmuş, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyi ilə əlaqədar yeniyetmələr arasında oxunması zəruri olan kitablar əsasında hazırlanan “Nə? Harada? Nə zaman?” intellektual oyununun Naxçıvan şəhər və Şahbuz rayon birincilikləri keçirilmişdir. Həmçinin ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatları arasında “İntellekt döyüşü” adlı layihə çərçivəsində “Xəmsə”, “Poliqon”, “Axtar, tap!” intellektual oyunları, “Naxçıvanın turizm imkanları” mövzusunda fotomüsabiqə keçirilmişdir.

Gənclər arasında idmanın kütləviliyinə nail olmaq məqsədilə üzgüçülük, karate-do, sərbəst güləş, boks, voleybol, futbol, kikboksinq, peyntbol, yüngül atletika növləri üzrə birinciliklər, yoldaşlıq görüşləri təşkil olunmuşdur.

Sentyabr ayında muxtar respublika idmançılarının müxtəlif idman növləri üzrə keçirilən Azərbaycan çempionatlarında, beynəlxalq turnirlərdə iştirakı təmin olunmuş, onlar yüksək nəticələr əldə edərək Azərbaycan birinciliyində 3, beynəlxalq turnirdə 16, beynəlxalq yoldaşlıq görüşündə 17 medal olmaqla, ümumilikdə, 36 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Cüdo birinciliyinə yekun vurulub



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində yeniyetmə və gənclər (U-15-2006-2007 və U-18-2003-2005-ci illər) arasında cüdo üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.*

Azərbaycan Cüdo Federasiyası, Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi açıq birincilikdə 2 yaş qrupunda 22 çəki dərəcəsi üzrə 120 idmançı iştirak edib.

Naxçıvan şəhər idmançıları ilə yanaşı, Şərur, Culfa rayonlarının və Heydər Əliyev adına Hərbi Lisey idmançılarının da iştirak etdiyi açıq birinciliyin yekununa əsasən qızlar arasında Aylin Məmmədli (22 kiloqram, Naxçıvan), Aynur Əsgərli (25 kiloqram, Naxçıvan), Cənnət Əliyeva (28 kiloqram, Naxçıvan), Sənubər Qurbanova (32 kiloqram, Naxçıvan) və Tərlan Cəfərli (36 kiloqram, Naxçıvan) qalib adını qazanıblar.

2003-2005-ci illər təvəllüdlü oğlan idmançılar arasında Orxan Niftəliyev (42 kiloqram, Naxçıvan), Tural Əsgərov (46 kiloqram, Naxçıvan), Yusif Həşimli (50 kiloqram, Culfa), Ənvər Gülmalıyev (55 kiloqram, Naxçıvan), Emil Nəzərov (60 kiloqram, Culfa), Turqay Məmmədov (66 kiloqram, Naxçıvan), Ramil Quliyev (73 kiloqram, Naxçıvan), Emil Quliyev (81 kiloqram, Naxçıvan), Ümid Şirəliyev (+81 kiloqram, Şərur) fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar. 2006-2007-ci illər arasında isə Mirismayıl Seyidli (30 kiloqram, Culfa), Qurban Məmmədli (34 kiloqram, Culfa), Elşad Mirzəyev (38 kiloqram, Şərur), Sami Səfərov (42 kiloqram, Naxçıvan), Elnur Əhmədli (46 kiloqram, Culfa), Nihad Hətəmli (50 kiloqram, Naxçıvan), Tofiq Nəcəfov (55 kiloqram, Naxçıvan) və Məhəmməd Məmmədli (60 kiloqram, Naxçıvan) birinci yerlərə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar təşkilatçıların diplom və medalları ilə təltif olunublar.

## Boksçularımızdan uğurlu nəticə



*Bakı şəhərində Şuşa Uşaq-Gənclər İdman Məktəbinin açıq birinciliyi keçirilib.*

Yarışda 13 çəki üzrə 100-dən artıq yeniyetmə (2004-2005-ci illər təvəllüdlü) boksçu mübarizə aparıb. Keçirilən açıq birincilikdə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının idmançıları da iştirak edib və uğur qazanıblar.

Belə ki, 42 kiloqram çəki dərəcəsində Sinan Əbilov bürünc medal qazanıb. 46 kiloqram çəki dərəcəsində Alışan İsmayılov, 48 kiloqram çəki dərəcəsində Nazim Abazərli və 66 kiloqram çəki dərəcəsində Asim Əliyev isə gümüş medal əldə ediblər.

Sonda fərqlənən idmançılar mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Elan

*Hörmətli abunəçilər!* Siz Naxçıvan Muxtar Respublikasının rəsmi mətbuat orqanı “Şərq qapısı” qəzetinə, şəhər və rayon qəzetlərinə, Azərbaycan Respublikasının qəzet və jurnallarına “Naxçıvanpoçt” MMC və onun poçt filiallarında abunə ola bilərsiniz.

Nəzərinizə çatdırılır ki, qəzet və jurnallara abunə yazılışı 1 noyabr 2019-cu il tarixdən 25 dekabr 2019-cu il tarixədək aparılacaqdır.

***Əlaqə telefonu: (+994 36) 545-07-67***

***Naxçıvan Muxtar Respublikası “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti***

***İtmişdir***

Həsənov Yaşar Abbasəli oğlunun adına olan NZ-6550414 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1495. Sifariş № 724